# AZƏRBAYCAN RESPUBLIKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/3** **07 yanvar 2019-cu il**

**Kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətində kompleks tədbirlər sisteminin Yol Xəritəsi çərçivəsində işlənib hazırlanması üzrə işçi qrupunun yaradılması barədə**

Azərbaycan Respublikası Prezidentinin kölgə iqtisadiyyatının azaldılması zərurəti barədə göstərişini rəhbər tutaraq, Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 3.5-ci “Kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətində kompleks tədbirlər sisteminin Yol Xəritəsi çərçivəsində işlənib hazırlanması” bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətində kompleks tədbirlər sisteminin Yol Xəritəsi çərçivəsində işlənib hazırlanması üzrə Auditorlar Palatasının aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri***

Vahid Novruzov – Auditorlar Palatasının sədri.

***İşçi qrupunun üzvləri***

Nəcəf Talıbov – Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri;
Elnur İbrahimov – Hüquqi təminat və standartlaşdırma idarəsinin rəisi;
Qoşqar Əhmədov – Auditdə innovasiyalar şöbəsinin müdir müavini;
İlqar Vəliyev – “Ernst and Young Holdings (CIS) B.V.” şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru;
Altay Cəfərov – sərbəst auditor;
Səftər Vəlizadə – sərbəst auditor.

2. İşçi qrupuna tapşırılsın ki, 2019-cu ilin 1 iyun tarixinədək qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətində kompleks tədbirlər sisteminin Yol Xəritəsinin işlənib hazırlanmasına dair təkliflərini təqdim etsinlər.

3. Sədrin müşaviri F.Qarayevə, Xarici əlaqələr, beynəlxalq təşkilatlarla iş və ictimaiyyətlə əlaqə şöbəsinin müdir müavini F.Kamalovaya tapşırılsın ki, üç gün müddətində bu qərarın mətninin ingilis və rus dillərinə tərcümə edilərək Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**Palatanın sədri** **Vahid Novruzov**